| | | | |
|---|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | GEOG 389 Əhali coğrafiyası, 6 AKTS | |
| | **Departament** | Coğrafiya və ətraf mühit | |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr | |
| | **Tədris semestri** | 2023/24-cü tədris ilinin payız semestri | |
| | **Fənni tədris edən müəllim** | Rövşən Kərimov, c.ü.f.d. | |
| | **E-mail:** | rovshan.kerimov@khazar.org | |
| | **Telefon:** | +994504886420 | |
| | **Mühazirə otağı/Cədvəl** | Həftənin 1-ci günü saat 15:50,<br>4-cü günü 12:20 | |
| | **Məsləhət saatları** | Həftənin 1-ci günü 14:00-15:00 | |
| **Prerekvizitlər** | | | |
| **Tədris dili** | Azərbaycan | | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | Əsas:<br>1. Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası. Dərslik. Bakı. 2016.<br>3. James M. Rubenstein. Contemporary Human Geography. 1st Edition. Pearson Education. 2019.<br>Əlavə:<br>3. Danny Mackinnon, Andrew Cumbers. Introduction to economic geography: globalization, uneven development and place. 2nd edition. Pearson Education. 2011.<br>4. İsmayılov Ç.N. İqtisadi və sosial coğrafiyanın əsasları. Bakı. 2010. | | |
| **Tədris metodları** | Mühazirə | | |
| | Slayd testləri ilə biliklərin yoxlanması | | |
| | Xəritə və sxem əsasında izah etmə | | |
| | Qrup müzakirəsi | | |
| **Qiymətləndirmə** | Komponentləri | Tarix | Faiz (%) |
| | Davamiyyət | | 5 |
| | Aktivlik | | 5 |
| | Kuiz | Oktyabr, dekabr | 10 |
| | Tapşırıqlar | Yazılı esse və/yaxud təqdimat–may | 10 |
| | Aralıq imtahanı | Noyabr | 30 |
| | Final imtahanı | Yanvar | 40 |
| | Yekun | | 100 |
| **Kursun təsviri** | "Əhali coğrafiyası" kursu ərazi əhali qruplarını, məskunlaşmış yerlər sistemlərini və onların dinamikasını, tərkibini kompleks şəkildə öyrənir. Kursun vəzifəsi dünyada, onun regionlarında, o cümlədən Azərbaycanda və müxtəlif tipli ölkələrdə əhali inkişafının qanunauyğunluqlarının xarakteristikasını vermək, habelə əhalinin, əmək ehtiyatlarının dinamikasının, strukturunun, yerləşməsinin, onlardan istifadənin iqtisadi-coğrafi xüsusiyyətlərini şərh etməkdir. Əhali etnogenezi, məskunlaşması, təbii artımı, miqrasiyası, həyat səviyyəsi, məşğulluğu, dini və etnik tərkibi öyrənilir, əhalinin kəmiyyət və keyfiyyət göstəriciləri təhlil olunur. | | |
| **Kursun məqsədi** | Fənnin tədrisində məqsəd əhali coğrafiyasının elmi əsaslarının, demoqrafik proseslərin, irqlərin, etnik tərkibin, dinin, əmək ehtiyatlarının, əhalinin miqrasiyasının, urbanizasiyanın, kənd və şəhər məskunlaşmasının coğrafi öyrənilməsidir. | | |
| **Tədrisin (öyrənmənin) nəticələri** | **Semestrin sonunda tələbələr aşağıdakıları bacaracaqlar:**<br>1. Dünyanın, onun ayrı-ayrı regionlarının əhalisinin sayı barədə məlumat əldə edəcəklər.<br>2. Dünyanın, onun ayrı-ayrı regionlarının, böyük ölkələrinin əhalisini, onun | | |

| | |
|---|---|
| | sayını, etnik, dini, cins, yaş tərkibini, əmək ehtiyatlarını müqayisəli şəkildə öyrənəcəklər.<br>3. Əhalinin etnogenezi, məskunlaşması, təbii artımı, dini və etnik tərkibi, yaş-cins tərkibi, təhsil səviyyəsi, miqrasiyası, həyat səviyyəsi, məşğulluğu barədə biliklərə yiyələnmiş olacaqlar.<br>4. Dünya əhalisinin kəmiyyət və keyfiyyət göstəricilərinin formalaşmasında rolu olan coğrafi, sosial-iqtisadi və demoqrafik amillərin rolu barədə geniş təsəvvürə malik olacaqlar. |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | Davamiyyət 5 balla qiymətləndirilir. Tələbənin dərsə onlayn qoşulması, qoşulma prosesinə gecikməməsi onun "Davamiyyət" balına yazılır. Tələbənin dərsə diqqətlə qulaq asması, axıradək onlayn rejimdən çıxmayaraq dərsi ekranda izləməsi, onlayn dərsdə danışaraq başqasına mane olmaması tələb olunur. Müəllim buna əməl etməyən tələbinin "davamiyyət" balından çıxa bilər. Hər 3-cü qayıb tələbənin 1 balını silmiş olur.<br>"Fəallıq" balı tələbənin keçilən mövzuya dair aktivlik göstərməsinə, müzakirələrdə fəal iştirakına, sual-cavabda işitirakına və suallara doğru cavab verməsinə görə verilir. Müəllim tələbənin fəallığını nəzərə almaqla hər dərs qeydlər aparır. Keçmiş mövzunu oxumadan dərsə qoşulan tələbə dərsdə tələb olunan fəallığı göstərə bilmir və buna görə semestrin sonunda həmin meyara görə verilən ballardan məhrum olur.<br>Quizlər üçün 10 bal ayrılıb. Belə ki, semestr ərzində ən azı 2 quiz (hər biri 5 ballıq) keçirilir. Quizlər açıq suallardan və ya test tapşırıqlarından, yaxud hər ikisindən (qarışıq) ibarət ola bilər. Tapşırıqlar müəllimin tələbələr üçün müəyyən etdiyi müddət ərzində yerinə yetirilə bilər. Quizdə üzürsüz səbəbdən iştriak etməyən tələbəyə əlavə 1uiz verilmir. Cavablarını gecikdirən tələbələrin işi qəbul olunmaya və ya ballarının bir hissəsi çıxıla bilər. Digər texniki məlumatlar tələbələrə müəllim tərəfindən əlavə izah ediləcək.<br>Layihənin məzmunu minimum 8 A-4 formatlı səhifə həcmində olmalı, maksimum 12 səhifə təşkil etməlidir. Yerinə yetirilən apşırığının məzmunu mövzunun adına uyğun olmazsa, iş müəllim tərəfindən qəbul olunmayacaq. Layihə Word proqramında yığılıbsa, Times New Roman şrifti, 14 keqel, 1 intervalla yazılır. Səliqəli yazmaq tələb olunur. Layihənin hazırlanmasında internet resursları, o cümlədən yerli və xarici ədəbiyyat, beynəlxalq hesabat və mətbuat materiallarından istifadə oluna bilər. İstifadə olunan ən son mənbələr 2015-ci ildən sonrakı illəri əhatə etməlidir. Layihə işinin birbaşa internetdən endirilib kağıza çıxarılması yolverilməzdir. İşin axırıncı səhifəsində mütləq istifadə olunmuş istinad linklərin adları göstərilməlidir.<br>Ən azı 3-4 mənbədən istifadə olunmayaraq yazılmış iş qəbul olunmur.<br>Layihə işinin strukturu belə olmalıdır:<br>1. Tələbənin və mövzunun adı (titul vərəqində).<br>2. Tədqiqatın məqsədi.<br>3. Tədqiqatın məzmunu, təhlili, statistik analiz.<br>4. Nəticə (perpsektiv).<br>Layihənin qiymətləndirilməsinin meyarları aşadğıdakı kimidir:<br>1. Fikirlərin ardıcıllığı, daha müasir ədəbiyyatdan istifadə – 3 bal.<br>2. Alınan nəticələrin spesifik və konkret olması, illər və ya dövrlər üzrə məntiqi təhlil, səbəb və nəticələrin, təsir edən amillərin və s. elmi cəhətdən düzgün göstərilməsi, doğru nəticə – 4 bal.<br>3. Təqdimat zamanı qazanılmış biliklərin yaxşı nümayiş etdirtilməsi – 3 bal.<br>Layihə işini təhvil tarixindən gec təqdim edən tələbə ən az 1-2 bal itirir.<br>Final və Aralıq imtahanları müəllim tərəfindən ya test, ya açıq sual, yaxud da hər ikisindən istifadə olunmaqla hazırlana bilər. Bununla bağlı daha ətraflı məlumat müəllim tərəfindən imtahan öncəsi veriləcək. |

**Cədvəl**

| Həftə | Tarix | Fənnin mövzuları | Dərslik / Tapşırıqlar |
|---|---|---|---|

| | | | |
|---|---|---|---|
| 1. | 18. 09. 2023<br>21. 09. 2023 | Əhali coğrafiyası elmlər sistemində. Dünya əhalisi. | 1.Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası . Dərslik. Bakı. 2016. Səh.7-17. |
| 2. | 25. 09. 2023<br>28. 09. 2023 | Əhalinin sayı və artımı | 1.Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası. Dərslik. Bakı. 2016. səh.20-41.<br>2. James M. Rubenstein. Contemporary Human Geography. 1st Edition. 2019. Chapter 2. |
| 3. | 02. 10. 2023<br>05. 10. 2023 | Əhalinin cins, yaş strukturu və ailə tərkibi. | 1.Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası. Dərslik. Bakı. 2016. səh.42-49 |
| 4. | 09. 10. 2023<br>12. 10. 2023 | Əhali qanunları. Demoqrafik siyasət | 1.Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası. Dərslik. Bakı. 2016. səh. 50-99. |
| 5. | 16. 10. 2023<br>19. 10. 2023 | İrqlərin coğrafiyası | 1.Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası . Dərslik. Bakı. 2016. Səh. 101-121. |
| 6. | 23. 10. 2023<br>26. 10. 2023 | Əhalinin etnik tərkibi | 1.Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası . Dərslik. Bakı. 2016. s.122-159.<br>2. James M. Rubenstein. Contemporary Human Geography. 1st Edition. 2019. Chapter 7. |
| 7. | 30. 10. 2023<br>02. 11. 2023 | Dinlərin coğrafiyası | 1.Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası . Dərslik. Bakı. 2016. s.122-159.<br>2. James M. Rubenstein. Contemporary Human Geography. 1st Edition. 2019. Chapter 6. |
| **Aralıq imtahanı** | | | |
| 8. | 06. 11. 2023<br>11. 11. 2023 | Əmək ehtiyatları | 1.Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası . Dərslik. Bakı. 2016. S.182-193.<br>2. D.Mackinnon, A.Cumbers. Introduction to Economic Geography: globalization, uneven development and place. 2nd edition. 2011. pp. 147-173. |
| 9. | 13. 11. 2023<br>16. 11. 2023 | Əhalinin məşğulluğu. İşsizlik | 1.Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası . Dərslik. Bakı. 2016. s.185-193.<br>2. D.Mackinnon, A.Cumbers. Introduction to Economic Geography: globalization, uneven development and place. 2nd edition. 2011.pp. 147-173. |
| 10. | 20. 11. 2023<br>23. 11. 2023 | Əhalinin miqrasiyası, növləri və səbəbləri | 1.Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası . Dərslik. Bakı. 2016.<br>2. James M. Rubenstein. Contemporary Human geography. 1st Edition. 2019. Chapter 3. |
| 11. | 27. 11. 2023<br>30. 11. 2023 | Əhalinin sıxlığı və ona təsir göstərən amillər | 1.Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası . Dərslik. Bakı. 2016.<br>2. James M. Rubenstein. Contemporary Human Geography. 1st Edition. 2019. Chapter 2. |
| 12. | 04. 12. 2023<br>07. 12. 2023 | Məskunlaşmanın tipləri və formaları. Şəhər yaşayış məskənlərinin coğrafiyası | 1.Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası . Dərslik. Bakı. 2016. S.248-262.<br>2. James M. Rubenstein. Contemporary Human Geography. 1st Edition. 2019. Chapter 11. |
| 13. | 11. 12. 2023<br>14. 12. 2023 | Şəhərlərin coğrafiyası | 1.Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası . Dərslik. Bakı. 2016. 271-289. |
| 14. | 18. 12. 2023<br>21. 12. 2023 | Kənd məskunlaşması | 1.Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası . Dərslik. Bakı. 2016. S.315-332.<br>2. James M. Rubenstein. Contemporary Human Geography. 1st Edition. 2019. Chapter 10. |
| 15. | 25. 12. 2023<br>28. 12. 2023 | Ümumiləşdirici dərs. Təqdimatlar. | |
| **Final imtahanı** | | | |